# SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ

## Əlavə E II

### ÜMUMİ SİYASƏT

**TelcoPlus** bir işə götürən kimi öz işçilərinin sağlamlığı, təhlükəsizliyi və rifahını münasib olaraq real şəkildə təmin etmək vəzifələrini tanıyır və qəbul edir.
**TelcoPlus** qonaqlarını, kontraktorları və onun fəaliyyətləri zamanı təsirə məruz qala biləcək ictimaiyyət üzvlərini qorumaq üçün bütün münasib şəkildə praktik səyləri göstərəcəkdir.
**TelcoPlus** bütün müvafiq qanunlara, əsasnamələrə və təcrübələrə riayət edəcək və aşağıdakılar üçün öz səlahiyyəti daxilində tədbirlər görəcəkdir:

- Obyektlərin və avadanlıqların təhlükəsiz və sağlamlıq üçün risksiz olmasını təmin etmək və saxlamaq.
- Material və maddələrin istifadəsi, ötürülməsi, saxlanması və daşınması zamanı təhlükəsizliyin və sağlamlığa risklərin olmamasının təmin edilməsi üçün tədbirlər görmək.
- İşdə öz işçilərinin sağlamlıq və təhlükəsizliyini təmin etmək məqsədilə zəruri hallarda lazımi məlumat, təlimat, təlim və rəhbərliklə təmin etmək.
- Təhlükəsiz iş yeri saxlamaq və ona təhlükəsiz giriş və çıxış vasitələrini təmin etmək və saxlamaq.
- Münasib şəraiti təmin etmək və saxlamaq.

Bu məqsədlərə nail olmaq məqsədilə şirkət Sağlamlıq və Təhlükəsizlik İdarəetməsində ən yaxşı təcrübəni irəli sürmək və saxlamaq üçün mümkün resurslardan istifadə etməlidir. **TelcoPlus** zədələnmə, xəstəlik və əmlaka ziyan vurulması ilə nəticələnə biləcək hər hansı bədbəxt hadisənin qarşısını almağa cəhd edəcəkdir.

### RƏHBƏRLİYİN MƏSULİYYƏTİ

**TelcoPlus** qətiyyətlə inanır ki, Sağlamlıq və Təhlükəsizlik əhəmiyyətcə digər hər hansı idarəetmə funksiyasına bərabər idarəetmənin bir aspektidir. Şirkət zədələnmə və xəstəliyin qarşısını almaq üçün bütün menecer və nəzarətçilərdən Sağlamlıq və Təhlükəsizliyi öz normal vəzifə və məsuliyyətlərinin bir hissəsi hesab etməyi gözləyir.
**TelcoPlus**-ın iş yerlərində Sağlamlıq və Təhlükəsizlik standartları üçün Baş Direktor cavabdehdir. Sağlamlıq və Təhlükəsizliyə nəzarət ediləcək və işimizin qiymətləndirilməsinin bir hissəsi kimi nəzərə alınacaqdır. Əlaqədar vəzifələr və məsuliyyətlər haqqında ətraflı məlumat Keyfiyyət, Sağlamlıq və Təhlükəsizlik İdarəetmə Sistemi Kitabçasındadır.

### İŞÇİLƏRİN MƏSULİYYƏTİ

**TelcoPlus** qanunun tələblərinə və öz Sağlamlıq və Təhlükəsizlik standartlarımıza cavab vermək üçün bütün işçilərindən rəhbərliklə əməkdaşlıq etməyi tələb edir.
İşçilərə özlərinin və ya digər şəxslərin Sağlamlıq və Təhlükəsizliyinə mənfi təsir edə biləcək risklər etməmək xatırladılır. Şirkətin Sağlamlıq və Təhlükəsizlik Siyasətinin hər hansı cür pozuntusu intizam tədbiri ilə nəticələnəcəkdir.
Bütün işçilər Sağlamlıq və Təhlükəsizlik İdarəetmə Sistemində göstərildiyi kimi öz vəzifə və məsuliyyətlərinin iş təlimatını alacaqdır.

### SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİYƏ KÖMƏK

Sağlamlıq və Təhlükəsizlik İdarəetmə Sisteminin başlıca funksiyası **TelcoPlus**-ın Sağlamlıq və Təhlükəsizlik Məqsədlərinə cavab verilməsinə kömək etməkdir. **TelcoPlus**-ın Sağlamlıq və Təhlükəsizlik Qaydalarının yaradılması, həyata keçirilməsi, monitorinqi və nəzərdən keçirilməsi daxil olmaqla, şirkətdə Sağlamlıq və Təhlükəsizliyin peşəkar və hərtərəfli şəkildə təmin edilməsi üçün Keyfiyyət Meneceri Baş Direktor qarşısında məsuliyyət daşıyır.

### İŞ TƏHLÜKƏSİZLİYİNİN TƏHLİLİ

Ümumi Sağlamlıq və Təhlükəsizlik tədbirlərimizin bir hissəsi kimi, **TelcoPlus** tərəfindən yerinə yetirilən bütün işlər üçün Sağlamlıq və Təhlükəsizlik risklərinin münasib və lazımi qiymətləndirilməsi aparılır.
Belə qiymətləndirmələrin məqsədi müvafiq qanunvericiliyə uyğun olmaq və işçilərimizin və **TelcoPlus**-ın fəaliyyətlərinin təsirinə məruz qalan digər şəxslərin Sağlamlıq və Təhlükəsizliyini təmin etmək üçün zəruri olan müvafiq profilaktik və qoruyucu tədbirləri müəyyən etməkdir.

### MƏSLƏHƏTLƏŞMƏ

İşçilərimizin fəal iştirakı olmadan heç bir Sağlamlıq və Təhlükəsizlik Siyasəti uğur qazanmayacaq. Keyfiyyət Komandamız vasitəsilə Sağlamlıq və Təhlükəsizlik İdarəetmə sisteminə dair təhlükəsizliyin yaxşılaşdırılması iclasları keçiriləcəkdir.
**TelcoPlus**-da təhlükəsizliyə nəzarət etmək və onu təkmilləşdirmək məqsədilə qanuni tələblərə uyğun KT/STƏM Meneceri təyin edilmişdir.

### TƏLİM

**TelcoPlus** işçilərimizin özlərinə və başqalarına təhlükə yaratmadan işlərini yerinə yetirmək üçün təcrübəli olmasını təmin etmək məqsədilə Sağlamlıq və Təhlükəsizlik Təlimini ehtiyacını tanıyır. Belə təlim işçinin istiqamətləndirilməsi zamanı və müntəzəm olaraq işlədiyi müddətdə həyata keçiriləcəkdir.

### BƏDBƏXT HADİSƏLƏRİN MƏRUZƏ EDİLMƏSİ VƏ ARAŞDIRILMASI

KT/STƏM Meneceri zədələnmə, əmlaka ziyan, xəta və ya uyğunsuzluqlarla əlaqədar bütün hadisələrin başvermə şəraiti və səbəblərini araşdırmaq və məruzə etmək üçün məsuliyyət daşıyır. Zəruri hallarda, müstəqil hadisə araşdırmasında menecer və nəzarətçilər ona kömək edəcəkdir.
Bədbəxt hadisələr üçün müvafiq məruzə forması doldurulacaq. Bütün məruzələrin surətləri Baş Direktora göndəriləcək.
Müəyyən hallarda şirkətxarici orqan(lar)la məsləhətləşmə aparıla bilər. O zaman onlar hadisə haqqında bütün məlumatlarla təmin ediləcəkdir.

### SİYASƏTİN NƏŞRİ

Bu siyasətin surətləri bütün işçilərə çatdırılacaq və Əsas Ofisdə və Anbarda asılacaq. O bütün kontraktorlar, müştərilər və qonaqların diqqətinə çatdırılacaq və hər hansı maraqlı tərəfə təqdim ediləcəkdir.

### SİYASƏTİN NƏZƏRDƏN KEÇİRİLMƏSİ

**TelcoPlus**-ın Sağlamlıq və Təhlükəsizlik İdarəetmə Siyasəti müntəzəm surətdə nəzərdən keçiriləcək və hər hansı qanunvericilik dəyişikliyi və/ya şirkətin ehtiyaclarından asılı olaraq ona düzəlişlər ediləcək. Lazım gəldikdə, yeni Sağlamlıq və Təhlükəsizlik məqsədləri müəyyən edilib əsas obyektlərimizdə yayımlanacaq. Bütün əlaqədar Sağlamlıq və Təhlükəsizlik işçiləri ilə edilən hər hansı dəyişikliklər məsləhət ediləcəkdir.

İmza　　　　　　　　　　　　Tarix

Baş Direktor **TelcoPlus**